# Şuşanın əzəli görkəmi özünə qayıdır



***Şuşa Azərbaycan mədəniyyətinin beşiyi, musiqi və mənəvi dünyamızın ruhudur. Uzun illər idi ki, mədəniyyətimizə Üzeyir Hacıbəyli, Xan Şuşinski, Cabbar Qaryağdıoğlu, Xan qızı Natəvan və yüzlərlə tarixi şəxsiyyət, mədəniyyət xadimləri bəxş etmiş bu əziz şəhərimizdən uzaq düşmüşdük, şuşalı günlərimizlə bağlı söhbətlərdə həmişə bir nisgil var idi. Lakin yurdumuza, doğma Qarabağımıza qovuşacağımıza inanır və bu günü inamla, ümidlə gözləyirdik. Vətən müharibəsində müzəffər Azərbaycan Ordusunun zəfəri və şücaəti sayəsində mədəniyyətimizin tacı olan Şuşanın azad edilməsi şanlı tariximizə böyük hərflərlə yazıldı. Şuşanın azad edilməsi bizim üçün doğma şəhərimizin yenidən bərpası, ruhumuzun dirçəldilməsi deməkdir. Odur ki, Prezident İlham Əliyevin Şuşaya tarixi səfəri ictimaiyyət tərəfindən böyük sevinc və qürurla qarşılandı. Hətta təkcə şuşalılara deyil, ümumilikdə xalqımıza sevincdən, yurd sevgisindən doğan kövrək anlar yaşatdı.***

Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın və qızları Leyla Əliyevanın martın 16-da Şuşaya növbəti səfərlərini də yüksək diqqət və maraqla izlədim. Səfər zamanı ölkə rəhbərinin şəhərin mədəni irsinin bərpası ilə bağlı bir sıra tapşırıqlar verməsi Şuşanın yenidən öz gözəl ab-havasına qovuşması baxımından olduqca əhəmiyyətlidir.

Erməni vandalları tərəfindən darmadağın edilmiş Molla Pənah Vaqifin muzey-məqbərə kompleksində bərpa işlərinin başlanması və bu tarixi məkanın əvvəlki görkəminə qaytarılması ilə bağlı Prezidentin tapşırıqlarını təqdir edirik. Onun "Ulu öndər Heydər Əliyev burada olarkən həm açılışda, həm də Vaqif poeziya günündə iştirak edib. Tarixi bərpa edirik. Bu layihəni Heydər Əliyev Fondu öz vəsaiti hesabına icra edəcək, Heydər Əliyev Fonduna xas olan zövqlə, Mehriban xanımın rəhbərliyi ilə."– söyləməsi bizi xəyalən də olsa, ulu öndərin iştirak etmiş olduğu həmin tarixi anlara qaytardı.

Səfər zamanı Şuşa Xalça Muzeyi, "Qarabağ" mehmanxanası, XIX əsrə aid Karvansaray Tarix-Memarlıq Kompleksi, vaxtilə öz ad-sanı ilə məşhur olan "Şuşa" sanatoriyasının vəziyyəti ilə tanışlıq bir daha erməni vandallığını dünyaya nümayiş etdirdi. Göründüyü kimi, işğalçılar tarixi-mədəni irsimizə qənim kəsilmişlər. Lakin artıq işğal dövrü bitdi. Və bu gün tarixi zəfərdən sonra Azərbaycan xalqı və dövləti həmrəy şəkildə azad edilmiş doğma yurdlarımızı bərpa etmək əzmindədir. O yollar, o yurd yerləri yenidən bərpa ediləcək, Vətən həsrəti ilə yaşayan şuşalılar öz evlərində çıraqlarını yandıracaqlar. Bir sözlə, Qarabağ hər mənada Azərbaycanın ən gözəl, səfalı bölgələrindən birinə çevriləcək.



Qarabağda mədəniyyət tariximizdə xüsusi önəm kəsb edən hər bir mədəni abidə, hər bir muzey, hər bir tarixi küçə bərpa ediləcək, Şuşa da əsl simasına qovuşacaq.

Bu istiqamətdə atılan addımlara Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xüsusi diqqətlə yanaşması tariximizə, mədəni irsimizə olan ehtiram, xalqımızın minilliklər ərzində bizə əmanət qoyduğu mədəni irsə böyük sevgidən qaynaqlanır. Şuşanın azad edilməsi ilə bağlı Prezidentin keçən ilin noyabrında etdiyi tarixi çıxışı zamanı " Əziz Şuşa, biz səni dirçəldəcəyik" ifadəsi bu gün öz təsdiqini tapmaqdadır.

Biz də "Şuşa" Humanitar Kollecinin kollektivi olaraq, doğma şəhərimizdə fəaliyyət göstərəcəyimiz günü səbirsizliklə gözləyir, bundan sonra, məhz Şuşada təhsil və mədəniyyətimizə töhfə verməyi arzu edirik.

***Azər SƏFİXANLI,***
***Şuşa Humanitar Kollecinin Tədris işləri üzrə direktor müavini***

Xalq qəzeti 2021.- 19 mart.- S.4.